Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Vətənin adını həmişə uca tutan ziyalı xanım

**Olya Zəbi qızı İslamova Azərbaycanda yeganə ziyalı qadındır ki, bütün mənalı ömrünü muzey işinə həsr edib. 55 ilə yaxın çalışdığı, 49 il direktoru olduğu "Sumqayıtın tarixi" Muzeyi onun ilk və yeganə iş yeridir!**



O, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olduğu ildə sanki məhz onun üçün nəzərdə tutularaq, cəmi bir ay əvvəl - 1967-ci ilin noyabrında açılışı olmuş Sumqayıt Tarix Muzeyində kiçik elmi işçi vəzifəsinə götürülmüşdü. O zaman şəhər parkının dənizə enən pilləkənlər kaskadının altında yerləşdirilmiş muzeyin eksponatları, müxtəlif tarixi sənədlər, kimya, metallurgiya, energetika müəssisələri, tikinti təşkilatları və onların ilk qurucuları haqqında materiallar, şəkillər hələ təzə-təzə, yenicə toplanmağa başlamışdı. Yəni ki, gənc tələbə ilk gündən muzey işinin burulğanına, start xəttinə düşmüşdü.

Geniş ensiklopedik biliyə malik olan, doğma vətəni Azərbaycanı hədsiz vurğunluqla sevən atası Zəbi Abdullayevin Xızıdan köçüb gələrək qoynunda 10 il idi ki yaşadıqları, özlərinə artıq çox doğma hesab etdikləri Sumqayıtın Tarix Muzeyinin yeni, maraqlı eksponatlarının toplanması işində dəyərli məsləhətləri, tövsiyələri, qızının işinin çox mühüm, əhəmiyyətli olduğunu bildirərək, onu həvəsləndirməsi gənc tarixçi Olyanı (bu ixtisası seçməyi də ona atası hələ məktəb illərindən məsləhət görmüşdü) muzeyə daha möhkəm bağlayır, onun fondunun zənginləşdirilməsi üçün gərgin yaradıcılıq axtarışlarına, araşdırmalara sövq edirdi.

Olya xanımı daxilən sevindirən, bir tale qisməti kimi məmnun edən bir fakt da vardı ki, bu da onu Sumqayıtı daha çox sevərək, ona bütün qəlbi ilə bağlanmağa, onun dünənininin və bugünün salnaməsinin yaradılmasında daha fəal, yaradıcılıqla iştirak etməsinə səbəb olurdu. Axı, o, Sumqayıtın yaşıdı, "dost-doğma bacısı" idi, ikisinin də o vaxt 18 yaşı vardı. Gənc muzey işçisi bunu bir "ürək sirri" kimi heç kəsə bildirməsə də, mənən bundan qürur duyurdu. Təsadüfi deyil ki, muzeyin yaradıldığı ilk günlərdən etibarən Olya xanımın da fəal iştirakı ilə toplanaraq, onun fonduna daxil edilmiş müxtəlif sənədlərin, foto-şəkillərin, eksponatların qeydiyyata alınması, sistemləşdirilməsi və bölmələr üzrə yerləşdirilməsi işi uğurla aparılmışdı. Bütünlükdə isə gənc əməkdaşın kiçik elmi işçi kimi çalışdığı ilk illərdə muzey kolleksiyalarının toplanıb-artırılması, ekspozisiyasının təkmilləşdirilməsi, tamamlanması üzrə geniş əhatəli, böyük həcmli işlər görülmüşdü. O, qısa müddət ərzində muzey fondunun nizamlanması və qorunması üzrə bütün lazımi elmi sənədləri tərtib etməklə yanaşı, Sumqayıt üzrə keçirilən mədəni-kütləvi tədbirlərdə də yaxından iştirak edərək, muzeyin şəhər həyatına "inteqrasiyasına", onun mühüm roluna, praktiki olaraq "durğun məkan" olmaqdan çıxaraq, fəaliyyət dairəsinin genişlənməsinə, səmərəliliyinin daha da artırılmasına nail ola bilmişdi. Və heç də təsadüfi deyildi ki, Olya xanımın muzey işlərinin elmi-kütləvi baxımdan təşkilində fəallığı nəzərə alınaraq, 1972-ci ilin iyulunda Muzey direktoru vəzifəsinin icrası məhz ona etibar edilmişdi (gələn il onun bu vəzifədə çalışmasının 50 ili tamam olacaq). Və o vaxtdan ötən illər əyani olaraq göstərdi ki, Olya xanım bu etimadı öz gərgin, səmərəli

**fəaliyyəti ilə ləyaqətlə, baş ucalığı ilə doğrultmuşdur. Diqqətəlayiqdir ki, həmin 1972-ci ildə muzey kollektivi SSRİ Mədəniyyət Nazirliyi tərəfindən elmi-kütləvi, maarifləndirici işlərdə fəal iştirakına görə xüsusi diploma, medala və pul mükafatına layiq görülmüşdü.**

1980-ci illər də Muzeyin həyatında yadda qalan illər olmuşdur. "Sumqayıt - sənaye mərkəzi", "Qardaşlaşmış şəhərlər", "Bizim müasirlərimiz - əmək qəhrəmanları" və s. kimi müxtəlif sərgilərin, muzeydənkənar tədbirlərin təşkili muzey rəhbərliyinin, onun bir amal ətrafında fəaliyyət göstərən səmimi, mehriban kollektivinin gərgin yaradıcılıq axtarışları, yorulmaz əməkləri sayəsində mümkün olmuşdu ki, bu da nəticəsiz qalmamış, muzeyin sonrakı illərdə iki dəfə SSRİ Mədəniyyət Nazirliyi tərəfindən xüsusi diplomlarla təltif edilməsinə səbəb olmuşdu.

Heç şübhəsiz ki, muzeyin o zaman və son illərdə nail olduğu uğurlarda Olya xanımla birgə 30 ilə yaxın çiyin-çiyinə çalışan müavini Namiq Əliyevin, kütləvi işlər şöbəsinin müdiri Sevinc Əmirovanın, baş elmi işçi İradə Mustafayevanın, kiçik elmi işçilər Zülfiyyə Fətəliyevanın, Cəmil Heydərovun, tərtibatçı rəssam Mətanət Həsənovanın, muzeydə 46 il əməyi olmuş baxıcı Naləndə Fərəcullayevanın (təəssüf ki, o fədakar əməkdaş iki il əvvəl haqq dünyasına qovuşub) böyük əməyi vardır.



## "İri gəmiyə böyük, geniş də dənizlər lazımdır"

İllər ötdükcə muzey fondundakı eksponatların sayı daim tarixi-yaradıcılıq axtarışlarında olan kollektivin işgüzarlığı sayəsində artmaqda davam edirdi. Ona görə də artıq ekspozisiyalar üçün darısqallıq edən Muzeyin daha geniş və müasir bir binaya köçürülməsinə böyük ehtiyac vardı.

1981-cu ildə - Ulu öndərin respublikaya rəhbərlik etdiyi dövrdə onun tövsiyəsi ilə o vaxtkı Nazirlər Sovetinin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması və təkmilləşdirilməsi" barədə qərarının verilməsi Olya İslamovaya çoxdan narahatlığını keçirdiyi, arzusunda olduğu məqsədə çatmağa ümid verdi. Belə ki, həmin vaxtlar Muzeyin əlverişsiz yerdə - havalar soyuduqda gediş-gəlişin kəsildiyi, diqqəti cəlb etməyən ərazidə, həm də böyük olmayan bir sahədə yerləşməsi onun geniş fəaliyyət göstərməsinə imkan vermirdi. Lakin Olya xanımın bu problemlə bağlı müraciətinə şəhər rəhbərliyi Muzey üçün ayrısa olaraq yeni bir binanın tikintisi üçün maliyyə mənbəyinin olmadığını, bunun üçün Bakının və Moskvanın razılığına ehtiyac olduğunu bəhanə gətirirdi və bütün yazışmalar, müraciətlər nəticəsiz qalırdı. Daim xəyalında Sumqayıtın təsəvvür etdiyi müasir muzeyinin olması arzusu ilə yaşayan Olya xanım inadından dönməyərək, özü məsələnin həlli yolunu tapır. Belə ki, o, bir vaxtlar şəhərin 4-cü mikrorayonunda fəaliyyət göstərmiş, lakin son zamanlar bütün SSRİ-də olduğu kimi M.Qorbaçov siyasi-iqtisadi xaosunun nəticəsi olaraq satış məhsullarının qıtlığı üzündən fəaliyyətini dayandırmış iki mərtəbəli univermağın boşalması muzeyin ora köçürülməsi üçün ən uyğun variant idi. Çox çək-çevirdən sonra Sumqayıt Şəhər Sovetinin İcraiyyə Komitəsi nəhayət ki özünün 22 iyun 1988-ci il tarixli qərarı ilə həmin ikimərtəbəli binanın Muzey üçün ayrılmasına razılıq verdi. Olya xanımın təklifləri əsasında şəhərin Memarlıq və şəhərsalma İdarəsi tərəfindən müvafiq layihə hazırlanaraq, rekonstruksiya və təmir işlərinə başlanıldı. İşlərin yüksək səviyyədə aparılıb başa çatdırılması üçün ora təhkim edilmiş iş icraçısından başqa həmin günlərdə daha bir, lakin "ştatdankənar" iş icraçısı da - Olya xanım da təmir-rekonstruksiya işlərinə səhər-axşam nəzarət etməkdə idi.

**Binanın əsaslı təmiri başa çatdıqdan sonra muzey ümumi sahəsi əvvəlkindən 8 dəfə çox - 2680 kv.m. olan yeni ünvana köçmüş, kollektiv tərəfindən işlənib-hazırlanmış tematik plan əsasında yeni ekspozisiya sistemi tərtib edilmişdi. O zaman şəhər qəzetləri xəbər verirdilər ki, "Muzey əşyaları ayrı-ayrı bölmələr - tətbiqi sənət nümunələri, arxeoloji əşyalar, fotoşəkillər, sənədlər nəqqaşlıq, qrafika, heykəltəraşlıq və s. üzrə əsas və elmi-köməkçi fondlarda yerləşdirilib. Artıq muzeyin ekspozisiyaları ayrı-ayrılıqda yerləşən böyük və kiçik zallarda nümayiş etdirilir. Daimi sərgi ilə yanaşı, səhərin ictimai-siyasi, mədəni həyatında baş vermiş hadisələri dolğunluğu ilə əks etdirən, daim bir-birini əvəz edən səyyar sərgilər muzey fondunun zənginliyindən xəbər verir".**

Yeni binanın sahəsinin genişliyi muzeydə ilk dəfə olaraq elmi kitabxananın yaradılıb-komplektləşdirilməsinə, müxtəlif sərgilərin təşkilində operativliyin və fəallığın təmininə, kütləvi mədəni-maarifləndirmə tədbirlərinin daha maraqlı keçirilməsinə imkan verirdi. Bütün bunlar öz növbəsində 1990-cı ildə muzeyin respublikada 3-cü, iki il sonra isə 2-ci kateqoriyalı kimi fəaliyyət göstərməsinə səbəb olmuşdu.

Bütün bu əldə olunan uğurlar Olya xanım Zəbi qızının Vətənini, yurdunu, xalqını bütün varlığı ilə sevən bir tarixçi, muzeyşünas kimi gərgin və yorulmaz fəaliyyətinin, kollektivlə birgə apardığı daimi elmi-yaradıcılıq axtarışlarının bəhrələri idi. Bunu belə bir fakt da təsdiq edir ki, əgər muzeyin yarandığı 1967-ci ildə onun əsas və köməkçi fondlarındakı eksponatların sayı 1100 idisə, hazırda onların sayı 14 dəfədən də çox artırılaraq, 15 minə çatdırılmışdır. Bu isə həm də ona görə mümkün olmuşdur ki, Olya xanım və onun muzey əməkdaşları Vətənin hər bir daşını qiymətləndirməyi, dəyərləndirməyi bacarır, onu tarixin bir parçası, gələcək nəslə çatdırılmalı olan bir tarixi eksponat kimi görürlər.

## Göyçədən, Zəngəzurdan zəngin tariximizlə gələn "qəcavə" Sumqayıt muzeyində "dinclik" tapdı

Olya xanım təcrübəli, daim yaradıcılıq axtarışında olan bir muzey rəhbəri kimi ötən əsrin 90-cı illərinin əvvəllərində mühüm bir təşəbbüs göstərir. Belə ki, 1988-ci ildə Ermənistandan Sumqayıta pənah gətirənlərdən birinin - qeyrətli, vətənpəvər ziyalı, daim xalqının, elinin-obasının keçmişini, sabahını düşünən tarix müəllimi Baxşeyiş Ələmşahovun qədim Göyçə və Zəngəzur mahallarından minlərlə başını götürüb qaçanlarlardan fərqli olaraq öz rayonunun tarix muzeyindəki qədim eksponatları, xalçaları, tətbiqi sənət nümunələrini və s. arabaya yükləyərək, çox çətinliklərlə, risklə də olsa, ermənilərin caynağından qurtarıb, Sumqayıta gətirdiyini eşidən Olya xanım Baxşeyiş müəllimlə görüşərək, özündə qədim Göyçə-Zəngəzur ellərinin ruhunu yaşadan həmin eksponatların "Sumqayıtın tarixi" muzeyində qorunub-saxlanmasına razılıq ala bilmişdi.

Hazırda Baxşeyiş Ələmşahovun "Bir elin harayı" adlandırdığı kolleksiya "Sumqayıtın tarixi" Muzeyinin ən qiymətli ekspozisiyasıdır. Çünki kolleksiyada təkcə yaxın əsrlərə yox, hətta çox uzaq XII əsrə aid 60-a qədər qiymətli məişət əşyası nümayiş etdirilir. "Köçkün muzey"in Sumqayıt muzeyində yerləşdirilməsi həm də ona görə əhəmiyyətlidir ki, onunla bütün sumqayıtlılar kimi vaxtilə bu şəhərə pənah gətirərək sığınmış yüzlərlə Göyçə-Zəngəzur camaatı da tanış ola bilirlər.



## Yalnız sənaye müəssisələri, tikinti obyektləri deyil, onları öz zəhməti ilə yaradıb-qurmuş hər bir Sumqayıt qurucusu da bu şəhərin unudulmayan tarixidir

Öz 70 illik yubileyini iki il əvvəl ölkə rəhbəri İlham Əliyevin iştirakı ilə təntənəli şəkildə qeyd etmiş Sumqayıtın şəhər kimi yaranma tarixi rəsmən 1949-cu il qəbul edilsə də, əslində onun əsasının qoyulması hələ ötən əsrin 30-cu illərinin ortalarından başlayır. Məhz həmin dövrdə Azərbaycan Boruprokat zavodunun, adı uzun illər "Ozer" kimi gizli saxlanılan Kimya zavodu və təşəbbüskarının dünya şöhrətli kimyaçı alim, akademik Yusif Məmmədəliyev olduğu Sintetik kauçuk zavodunun, 1 №-li İstilik-elektrik Mərkəzinin ilk sex və qurğularının inşasına məhz o dövrdə - hələ II Dünya müharibəsindən əvvəl başlanılmışdı. Hətta Almaniyanın faşist rəhbəri A.Hitler SSRİ ilə müharibəyə başlamazdan əvvəl qələbə qazanacağına heç bir şübhə etmədən Sumqayıt Sintetik kauçuk zavoduna özünün alman direktorunu da təyin etmişdi.

Bu gün Sumqayıtın bu ilk böyük zavodları ilə yanaşı cənubi Qafqazın ən iri sənaye müəssisələri olan Kimya kombinatı, Alüminium zavodu, şəhərdə maşınqayırmanın ilki olan Kompressorlar zavodu ilə bərabər onları yaradıb-quranlar da bu şəhərin şərəfli tarixinin bir hissəsidir. Məhz buna görə həmin müəssisələrin tarixini, fəaliyyətini əks etdirən eksponatlar, rəsmi sənədlər, foto-şəkillərlə yanaşı Sumqayıtın qurucularının, əmək bahadırlarının keçdiyi şərəfli ömür yolları ilə bağlı materiallar, onların şəxsi arxivləri də muzey fondunun əsasını təşkil edir. Sumqayıtın ilk quruculan kimi ona şan-şöhrət gətirmiş metallurqlar - Sosialist Əməyi Qəhrəmanları Murad Zeynalovun, Zəminə xanım Həsənovanın, Tofiq Kərimovun, şəhərin tikintisinin ilk illərində bütün işlərə rəhbərlik etmiş Kamran Hüseynovun, Yəhya Məmmədovun, Məhəmməd Cəlilovun, tikinti təşkilatlarının adlı-sanlı rəhbərləri - "Zaqpromstroyun" rəisləri olmuş Mehbalı Əmiraslanovun, Məzahir Abdullayevin, Sumqayıtın təşəbbüskar və qayğıkeş meri Hüseyn (Kamal) Axundovun, Sosialist Əməyi Qəhrəmanları Aslan Osmanovun, İdris Dadaşovun ömür salnamələrindən şəxsi sənədlərin, fotoların dili ilə geniş söhbət açılır.

**Sumqayıtın ilk quruculan, adlı-sanlı əmək adamları barədə hər zaman fəxrlə, ürək dolusu fərəhlə danışan Olya xanım İslamovanın söhbətində onların hər birinin xatirəsinə böyük ehtiram hiss olunur:**

- Muzeyimizdə şəhəri qurub-yaradanların əksəriyyətinin şəxsi arxivləri gələcək nəsillər üçün qorunub-saxlanılır. Həmin arxivlər, o şəxslərə həsr edilmiş guşələr bugünkü və gələcək nəsillərin Vətənimizə, doğma şəhərimizə, onun qurucularına böyük ehtiram və məhəbbət ruhunda yetişməsində, tərbiyəsində mühüm əhəmiyyətə malikdir. Bu isə biz muzey işçilərinin ən əsas, ümdə vəzifəsidir.

Olya xanım bildirir ki, şəhərin ilk qurucuları ilə yanaşı onun metallurq və kimyaçılarının, energetiklərinin, təhsil, səhiyyə və mədəniyyət işçilərinin həyat və fəaliyyətləri ilə bağlı eksponatlar muzeyə gələn sumqayıtlılarda, xüsusilə məktəblilərdə, tələbələrdə və şəhərimizin qonaqlarında böyük maraq doğurur.

O, fəxrlə onu da qeyd edir ki, muzeydə Sumqayıt metallurqlarına, kimyaçılarına və digərlərinə xüsusi guşələr, stendlər yaradılmışdır. Metallurqların böyük bir nəslinin - şəhərin ilk Sosialist Əməyi Qəhrəmanı Murad Zeynalovdan tutmuş sonrakı Qəhrəmanlar - Zəminə Həsənovanın, Tofiq Kərimovun, məşhur poladəridənlər Cahangir Mustafayevin, Fərman Cəfərovun, Allahyar Əmrahovun, İzzət Yusifovun, Allahverdi Süleymanovun, Yaşar Abbasovun həyat və fəaliyyətləri xüsusi guşədə, geniş şəkildə foto və sənədlərdə, kinolentlərədə əks olunmuşdur.

**O da diqqətəlayiqdir ki, "Sumqayıtın tarixi" muzeyi yalnız öz zəngin fondu ilə deyil, həm də şərəfli əməyin, elmin, mədəniyyətin, ədəbiyyatın təbliğ mərkəzi kimi də diqqəti çəkir. Burada veteranların vaxtaşırı görüşləri, sumqayıtlı şair və yazıçılarının kitablarının təqdimatı, şəhər miqyaslı müxtəlif tədbirlər də keçirilir.**

Özündə Sumqayıtın tarixini yaşadan bu böyük, sirli-soraqlı mərkəzin əməkdaşları hər zaman çalışırlar ki, şəhərin qurulmasında və onun sosial-iqtisadi inkişafında xidmətləti olanların heç biri unudulmasın. Olya xanımın təşəbbüsü ilə bugünlərdə məşhur kimyaçılar, Prezident təqaüdçüləri - 98 yşlı veteran, 1941-45-ci illər müharibə iştirakçısı respublikanın Əməkdar səmərələşdiricisi, SSRİ ixtiraçısı, Azərbaycanın Fəxri-neftçisi Yuri Yermakovun və Dövlət mükafatı laureatı, Əməkdar mühəndis, SSRİ-nin əlaçı kimyaçısı Zülfi Sadıxovun şəxsi arxivlərinin toplanıb, səliqəyə salınaraq, muzeyə təhvil verilməsi üzərində iş aparılır.

## Mədəni-kütləvi, ədəbi tədbirlər ocağı

Olya xanımın rəhbərlik etdiyi bu işgüzar, yaradıcı, təşəbbüskar kollektiv muzeyin öz əsas funksiyasını yerinə yetirməsilə kifayətlənməyərək, burada vaxtaşırı müxtəlif görüşlərin, rəsmi və mədəni-kütləvi tədbirlərin hazırlanmasına və uğurla keçirilməsinə də nail olurlar.

Azərbaycanın ədəbi mühitində yaxşı tanınan istedadlı şair və yazıçılarla, jurnalistlərlə, o cümlədən yazıçı-publisist, respublikanın Əməkdar jurnalisti, şəhərin quruculan haqqında 600 səhifəlik sanballı kitabın müəllifi, "Sumqayıtın əks-sədası" filminin görkəmli rejissor Davud İmanovla birgə yaradıcısı (ssenari müəllifi) Eyruz Məmmədovla, Azərbaycanın Əməkdar həkimi, Sumqayıtın ilk yarandığı günlərdə şəhər əməkçilərinin sağlamlığı keşiyində dayanmış, sonralar uzun illər - ömrünün sonunadək məşhur "Melallurq" gecə sanatoriya-profilaktoriyasının baş həkimi olmuş tibb elmləri namizədi Klara Kasyanovanın xatirələr kitabı ilə bağlı, şəhərin baş rəssamı, Əməkdar İncəsənət xadimi Vaqif Nəzərovla, Sumqayıtın Rus icmasının nümayəndələri ilə təşkil edilən görüşlər, "Azərikimya" İstehsalat Birliyinin kollektivi ilə birgə Sumqayıt kimya sənayesinin 70 illik yubileyi ilə bağlı keçirilən təntənəli tədbir və s. bu gün də sumqayıtlıların yaddaşındadır.

## Muzeydə "yaşayan" qardaşlaşmış şəhərlər

Sumqyıtla qardaşlaşmış 12 şəhər - Gürcüstanım Rustavi, Ukaynanın Çerkassı, Almaniyanın Lüdviqshafen şəhəri və digər şəhərlərlə dostluq əlaqələrinin tarixindən və davamından bəhs edən, əyani eksponatlarla, foto-şəkillərlə, rəsmi materiallar və qəzet-jurnallarla zəngin olan xüsusi stend və guşələr muzeyin ən çox diqqət çəkən, maraq doğuran ekspozisiyalarıdır. Olya xanımın muzeyə gələnlərə və şəhərin qonaqlarına böyük həvəslə təqdim etdiyi kolleksiya isə Sumqayıtın 40 ildən artıq dostluq etdiyi Lüdviqshafen ilə bağlıdır. Bu da təbiidir, çünki bu iki şəhər arasında dostluq əlaqələri daha möhkəm və davamlıdır. İndiyədək sumqayıtlılar və alman dostlar özlərinin nümayəndə heyətləri ilə 60 dəfədən artıq görüşmüşlər.



***

"Sumqayıtın tarixi" muzeyinin "Tərəqqi" medallı rəhbəri, Azərbaycanın Əməkdar Mədəniyyət işçisi Olya İslamova muzeyə son zamanlar iki "eksponat" da töhfə etmişdir. Muzey fondunun materialları əsasında kollektivlə birgə doğma şəhərin 50 illik yubileyinə hazırladığı "Sumqayıt - danışan tariximizdir", 60 illiyinə isə "Mədəniyyətin tərəqqi ünvanı - Sumqayıt" adlı geniş informatik oçerklər kitabları onun muzey üçün dəyərli töhfəsi - "eksponat"larıdır.

**Müdrik, ziyalı atası Zəbi Abdullayevin də hədsiz çox sevdiyi Sumqayıtın ictimai-mədəni həyatında fəal iştirakı ilə şəhər Bələdiyyəsinin üzvü seçilməsi, son illərdə YAP şəhər təşkilatının və Ağsaqqallar Şurasının üzvü olması, respublikanın fəxri adlarına layiq görülməsi də Olya xanımın öz işi, əməli ilə Vətənin və atasının adını hər zaman uca tutduğunu təsdiq edir.**

**Rəhman ORXAN**